# HƏSƏNOV İLHAM GÜLBALA OĞLU



Həsənov İlham 6 may 1976-cı ildə Ağstafa rayonunun Xətai kəndində dünyaya göz açmışdır. 1983-cü ildə Yenigün kənd orta məktəbini bitirdikdən sonra Bakı Yüngül Sənaye Texnikumunun Ağstafa filialına daxil olmuşdur. 1994-cü ilin sentyabrında Milli Orduya çağırılmış və Bakıdakı hərbi hissələrin birində xidmətə başlamışdır. 6 ay hərbi təlim keçdikdən sonra cəbhə bölgəsinə yollanmışdır. 1995-ci il martın 13-də dövlət çevrilişinə cəhd edən silahlı dəstənin zərərsizləşdirilməsində müstəsna rolu olmuş, martın 17-də qiyamçı dəstənin tamamilə tərkisilah olunmasında yaxından iştirak etmişdir. Vətən borcunu yerinə yetirən İlham Həsənov elə həmin gün qarşı tərəfin atdığı gülldən dünyasını dəyişmişdir. Ağstafa şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Həsənov İlham Gülbala oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Ağstafa rayonunda adına küçə var.